Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm". Deyildi : "Fə'l nədir?". Dedi: "Yaxşı söz

Ənəs bin Malikdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm". Deyildi : "Fə'l nədir?". Dedi: "Yaxşı söz".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, cahiliyyə dönəmi insanlarının bir xəstəliyin Allahın təqdiri olmadan öz-özünə başqasına keçdiyinə inandıqları yoluxma batildir. Uğursuzluğa inanmaq da batildir. O quşlara, heyvanlara, əlillərə, rəqəmlərə, günlərə və səsli və ya görünən digər şeylərə bağlanılan bədbinlik inancıdır. O, quşu yalnız İslamdan əvvəlki cahiliyyə dövründə məşhur olduğu üçün qeyd etdi. O zaman insanlar səfər, ticarət və ya başqa bir işə başlamaq istədikdə, quşu havaya buraxardılar. Və əgər quş sağa uçardısa, nikbinliyə düşər və istədikləri işə davam edərdilər. Yox, əgər sola uçardısa, bədbinliyə inanar və istədikləri o işə başlamazdılar. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın eşitdiyi xoş sözdən dolayı başına gələn fərəh və sevinci xoşladığını və bu şeyin, onun Rəbbi haqqında gözəl düşünməsinə səbəb olduğunu dedi.

http://sunnah.global/hadeeth/az/show/3422